*Fikrət Əmirov–100*

# "Şərq simfonizmi"nin yaradıcısı – bəstəkar Fikrət Əmirov

**İradə Köçərli**
Sənətşünaslıq elmləri doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: i.kocharli@gmail.com

**Annotasiya.** 2022-ci il görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubiley ilidir. Bu yubiley ilində bu böyük insanı bir daha dərin hörmət və minnətdarlıqla yada salır, ecazkar musiqisinin təsiri altında yaşayırıq. Bəstəkarın yaratdığı əsərlər, illər keçməsinə baxmayaraq, yenə də səslənir, sevilir, xalqımıza mənəvi zövq verərək yüksək hisslər aşılayır. Fikrət Əmirov, təkcə Azərbaycan deyil, dünya musiqi mədəniyyəti xəzinəsinə bədii sənət inciləri bəxş etmiş, "simfonik muğam" kimi yeni bir musiqi janrının əsasını qoymuş bir bəstəkardır. F.Əmirovun yaradıcılığı geniş və hərtərəflidir. O, əksər musiqi janrlarında qiymətli əsərlər yazmışdır. O, çoxlu sayda simfonik əsərlərin, baletlərin, "Sevil" operasının, instrumental və vokal-instrumental əsərlərin, musiqili komediyaların, dram və kinofilmlərə yazılmış musiqinin, konsertlərin, elmi-publisistik məqalə və oçerklərin müəllifidir. Fikrət Əmirov 1922-ci ildə Gəncə şəhərində – görkəmli Şuşa sakini – mahir musiqiçi, tarzən, ud, kanon ifaçısı, musiqişünas, xanəndə, bəstəkar, maarifçi Məşədi Cəmil Əmirovun ailəsində dünyaya gəlmişdir. Kiçik Fikrət musiqi aləminə atasının çaldığı və oxuduğu xalq melodiyaları, "Şur", "Rast", "Segah" və başqa muğamların sədaları altında qədəm qoymuş, atası kimi, tarda çalmış, bu çalğı alətinin sehirli səsilə milli musiqini, qədim muğamları dərk etmişdir.
**Açar sözlər:** F.Əmirov, simfonik muğam, orkestr, "Nizami" simfoniyası, "Min bir gecə" baleti

**Məqalə tarixçəsi:** göndərilib – 14.04.2022; qəbul edilib – 25.04.2022

# Composer Fikret Amirov – creator of "East symphonism"

**Irada Kocharly**
Doctor of Art studies
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: i.kocharli@gmail.com

**Abstract.** 2022 year is prominent Azerbaijani composer Fikret Amirov's 100$^{th}$ anniversary. The great person passed away decades ago. However, his works are master pieces that have already gained eternity and they are still sounded, loved and delighted our people particularly, giving them spiritual pleasure despite the passing of years. Fikret Amirov was a composer who gave pearls of art not only to Azerbaijan, but also to the world music culture and laid the foundation of a new genre of music such as "symphonic mugham". F. Amirov's work is wide and comprehensive. He wrote valuable works in most genres of music. He was the author of numerous symphonic works, ballets, opera "Sevil", instrumental and vocal-instrumental works, musical comedies, music for dramas and movies, concerts, scientific and publicist articles and essays. Fikret Amirov was born in 1922 in Ganja – in a talented musician, tar player, oud player, canonist, musicologist, singer, composer, and educator Mashadi Jamil Amirov's family. Little Fikrat entered the world of music under the sounds

of folk melodies, "Shur", "Rast", "Segah" and other mugham played and sung by his father and played the tar and understood national music and ancient mughams with the miraculous sound of this instrument like his father. Live communication with the great people of Shusha – U.Hajibeyli, Bulbul, J.Garyagdioglu, S.Shushinsky, G.Pirimov and others also played a leading role in the formation of his creative credo.

**Keywords:** Fikret Amirov, "symphonic mugham", symphony "Nizami", opera "Sevil", ballet "1001 night"

**Article history:** received – 14.04.2022; accepted – 25.04.2022

## Giriş / *Introduction*

XXI əsrin ilk onilliklərini yaşayırıq. İndi vaxtaşırı arxaya dönüb, bu günün pəncərəsindən ötən yüzilliyə – çoxlarımızın şahidi olduğumuz və yaşadığımız XX yüzilliyə nəzər salırıq. Bu zaman qarşımızda dahi sənətkarların, nəhəng şəxsiyyətlərin sıralandığı bir ulduz çələngini görmüş oluruq. Düşünürəm ki, indi onların siması bizə daha aydın, daha qabarıq görünür, bir nur kimi işıq saçaraq qəlbimizi isidir, ruhumuza qida verir, bizi gələcəyə səsləyir. Onlar əsrin sınağından, illərin sərt süzgəcindən keçərək əbədilik qazanmış, adları tariximizə böyük hərflərlə yazılmış dühalardır. Həmin çələngin ən parlaq ulduzlarından biri də bu gün 100 illik yubileyini qeyd etdiyimiz bəstəkar Fikrət Əmirovdur. F.Əmirov, təkcə Azərbaycan deyil, eyni zamanda dünya musiqi mədəniyyəti xəzinəsinə parlaq sənət inciləri bəxş etmiş böyük bəstəkardır. Onun yazdığı hər bir əsər, hər bir musiqi notu belə xalqımız üçün çox doğma və əzizdir. Çünki Fikrət Əmirov yaradıcılığı "dahi Müəllimim" dediyi Üzeyir Hacıbəylinin məktəbindən güc alır, dərin köklərlə milli musiqiyə söykənir, eləcə də, dünya musiqi mədəniyyətinin nailliyyətlərilə üzvi şəkildə qovuşur.

## Əsas hissə / *Main Part*

F.Əmirovun yaradıcılığı ilk növbədə, xəlqiliyi, milliliyi ilə seçilir. Onun yaradıcılığında vətən, xalq məfhumları ana xətt kimi keçir və azərbaycançılıq məfkurəsinə sıx bağlıdır.

F.Əmirov yaradıcılığı incə lirizmi, epik-dramatik təhkiyə tərzi, obraz və mövzuların dərinliyi, insan hisslərinin min bir çalarları, fəlsəfi düşüncələrin romantik və emosional ifadəsi ilə diqqəti cəlb edir.

F.Əmirov – böyük melodist bəstəkardır. Zərifliyi, səmimiliyi, ahəngdarlığı, poetikliyi ilə seçilən əsrarəngiz melodiyalar yaradıcısıdır və sıx tellərlə milli melosa, milli qaynaqlara bağlıdır. Dahi sovet bəstəkarı D.Şostakoviç bu haqda demişdir: "Fikrət Əmirovun yaradıcılığının canı melodiyadır."

F.Əmirov – həm də böyük orkestr ustasıdır, milli Azərbaycan və Şərq koloritini yaratmaq bacarığına malik sənətkardır. Onun əsərlərinin orkestr həlli – rəngarəng səs palitrası, incə tembr tapıntıları, hətta "Əmirov akkordları" adını alan romantik ruhlu, dolğun və təravətli harmonik səslənmələri, bəzən "emosional partlayış" [1, s.23] dərəcəsinə çatan parlaq effektləri xüsusilə cəlbedicidir.

Fikrət Əmirovun yaradıcılığı təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından uzaqlarda da tanınmış və şöhrət qazanmışdır. Onu dünyaya tanıdan, ilk növbədə, "Şur" və "Kürd-ovşarı" simfonik muğamları olmuşdur. Bu əsərləri yazarkən F.Əmirovun cəmi 26 yaşı vardı. Tələbəlik illərini yenicə bitirmiş gənc bəstəkar üçün bu, çox böyük uğur idi və onun fitri istedadının göstəricisi idi. Fikrət Əmirov özünün novator təfəkkürü ilə bu gənc yaşlarında musiqi tarixində yeni bir janrın – "simfonik muğam"ların təməlini qoyurdu və bir bəstəkar kimi "yaradıcılıq yolu məhz bu uca zirvədən başlanırdı" [2, s.149].

Məlum olduğu kimi, bəstəkarın "Şur" və "Kürd-Ovşarı" dulogiyası Bülbülün ideyası əsasında 1948-ci ildə yazılıb və ilk dəfə Niyazinin dirijorluğu altında səsləndirilib. Böyük uğur qazanan əsər çox tez bir zamanda dünya şöhrəti qazanır, məşhur dirijorlar – L.Stokovski, L.Münş, Q.Abendrop, Q.Rojdestvenskiy tərəfindən ifa edilib, bir çox ölkələrdə səsləndirilib və hamı tərəfindən yüksək qiymətləndirilib.

Məlum olduğu kimi, muğam – Şərq musiqi mədəniyyətinin, simfonizm isə, Qərb musiqi mədəniyyətinin ən yüksək bədii nailiyyətlərindən hesab olunur. Onların hər biri müxtəlif dövrlərdə yaranmış, hər biri özünəməxsus intonasiya-məzmun quruluşuna malikdir və hər biri ayrı-ayrı düşüncə tərzinin məhsuludur. F.Əmirov simfonik muğamları ilə bu iki fərqli düşüncə tərzinin – müxtəlif sistemlərə aid olan prinsiplərin üzvi qovuşuğuna, Şərq və Qərbin mükəmməl bədii sintezinə nail olmuşdur [3, s.67].

Ü.Hacıbəylidən nümunə götürən F.Əmirov muğamın əsas konstruksiyasını qoruyub saxlamaqla yanaşı, onu simfonik əsasda səsləndirməyə nail olmuşdur. O, muğamın quruluşunu – improvizasiyalı şöbələr, mahnı-rəqs xasiyyətli təsnif və rənglərin ardıcıllığı, növbələşməsi və inkişafı prinsipləri, səs məqam əsasını və s. qoruyub saxlamaqla, onu simfonizmin ümumi qaydaları çərçivəsinə bədii şəkildə uyğunlaşdırmışdır. Onun təfsirində muğam, simfonik düşüncəyə xas olan ifadə vasitələri ilə – Qərb çalğı alətlərindən ibarət çoxsəsli orkestrin mükəmməl səslənməsi, tembr rəngarəngliyi, polifonik formalar, leytmotiv sistemi imkanları, motiv-intonasiya transformasiyaları, modulyasiyalar və s.-dən istifadə olunması ilə bir qədər də zənginləşmişdir. Beləliklə, muğam F.Əmirovun təfsirində, özünün tipoloji keyfiyyətlərini saxlamış, eyni zamanda, Avropa simfonizminin ifadə vasitələrini əldə etmiş, bununla da, tamamilə yeni bir obrazlı-emosional məzmun yaranmış və yeni "Şərq simfonizmi"nin əsası qoyulmuşdur. (Bu əsərlər sonradan digər Azərbaycan bəstəkarları tərəfindən yeni simfonik muğamların yaranmasına gətirib çıxarmışdır. Niyazi "Rast", S.Ələsgərov "Bayatı-şiraz", T.Bakıxanov "Humayun", "Rahab", "Şahnaz", "Dügah", V.Adıgözəlov "Segah" və s.).

F.Əmirov "Gülüstan-Bayatı Şiraz" simfonik muğamını isə 1971-ci ildə yazmışdır. Hər üç simfonik muğamı yazarkən, bəstəkar, ümumi muğam qanunauyğunluqlarını saxlamaqla, fərqli yanaşmalar sərgiləmişdir. Belə ki, "Şur" simfonik muğamında ənənəvi muğam improvizasiyaları – maya və şöbələrlə yanaşı, ("Şur", "Şur-şahnaz", "Bayatı", "Əraq", "Simayi-şəms"), xalq mahnılarından ("Evləri var xanə-xanə", "Ay qadası") istifadə etmişdir. "Kürd-ovşarı"da isə daha çox zərbi-muğamlardan, klassik aşıq havalarından, rəqs melodiyalarının ("Cəngi", "Vağzalı") ritm-intonasiyalarından yararlanmışdır. "Gülüstan-bayatı-şiraz" simfonik muğamında, bəstəkar, əsərin səs-məqam əsasını daha azad şəkildə həll etmişdir. Burada "Bayatı-şiraz" muğamı və ona aid "Hüzzal" rəngi ilə yanaşı, "Humayun", "Segah", "Şur", "Çahargah" muğamlarından, xalq mahnı və rəqslərinin melodik, ritmik intonasiyalarından ustalıqla istifadə olunmuşdur.

F.Əmirovun simfonik yaradıcılığı mövzu və janr müxtəlifliyi ilə fərqlənir. Bəstəkarın "Nizaminin xatirəsinə" (Nizaminin 800 illik yubiley münasibətilə) lirik-dramatik simfoniyası, "Elegiya" – Ü.Hacıbəyliyə ithaf, "Elegiya" – (A.Zeynallıya həsr olunur), möhtəşəm himn kimi səslənən "Azərbaycan" simfonik süitası (1950), "Azərbaycan kapriççiosu" (1961), "Azərbaycan qravürləri" (1976/1979), "Simfonik portretlər" (Ü.Hacıbəyli, H.Cavid, C.Cabbarlı, S.Vurğun, Bülbül və Niyaziyə həsr olunmuş (1960-cı illərin sonu), Molla Pənah Vaqifin yaradıcılığına həsr etdiyi "Vaqifi" simfonik poeması (1964) milli folklor ənənələri zəminində yazılmış, mürəkkəb psixoloji obrazlar aləminə malik əsərlərdir və onların hər biri Azərbaycan musiqi mədəniyyətinin parlaq sənət nümunələridir.

F.Əmirov bir çox ilklərə imza atan bəstəkardır. O, Azərbaycanda ilk milli lirik-psixoloji "Sevil" operasının müəllifidir. Opera 1953-cü ildə yazılmış və "Koroğlu"dan sonra Azərbaycanda yaranmış ən uğurlu səhnə əsərlərindən biri hesab olunur. Bəstəkar operada məişət mövzusuna müraciət edərək, xalq musiqi janrlarının zəngin çalarlarından, muğam sənəti ənənələrindən məharətlə istifadə etmiş, operaya, ilk

dəfə olaraq, şəhər mühitini ifadə edən "romans" və "vals' janrlarını daxil etmişdir.

F.Əmirov – ilk milli instrumental konsertlərin müəllifidir. O, 1948-ci ildə Fortepiano və xalq çalğı alətləri orkestri üçün konsert janrını yazmış və bu, Azərbaycan musiqi tarixində daha bir yeni başlanğıc olmuşdur. F.Əmirov, eyni zamanda, E.Nəzirova ilə birlikdə "Fortepiano və simfonik orkestr üçün ərəb mövzularında Konsert" yazmışdır. Bu əsər pianoçuların repertuarında özünə möhkəm yer tutmuş və ölkəmizdən kənara çıxaraq müxtəlif konsert səhnələrində ilk Azərbaycan fortepiano musiqi nümunəsi kimi səsləndirilmişdir.

F.Əmirovun yaradıcılığı janr müxtəlifliyi ilə fərqlənir. 60-70-ci illər arasında bəstəkarın yaradıcılığında balet musiqisi mühüm yer tutmuşdur. Onun ilk balet əsəri "Şur" simfonik muğamı əsasında üçhissəli Xoreoqrafik novelladır (1968). 1973-cü ildə isə bəstəkar Nəsiminin yubileyi münasibətilə "Nəsimi haqqında dastan" adlı xoreoqrafik novellasını yazır. Ən parlaq sənət incilərindən biri olan bu xoreoqrafik novella özəl janrda yazılmış əsər kimi dəyərləndirilir, bəstəkarın baletə yeni yanaşmasını sərgiləyir: belə ki, burada musiqi və poeziya, musiqi və xoreoqrafiya, solo və xor ifaçılığı, rəqs, təsviri sənət vəhdət halında bir-birinə qovuşmuşdur. F.Əmirov "Xəzəri fəth edənlər" xoreoqrafik poeması (1976) və "Nizami" baletinin (80-ci illərin əvvəli) də müəllifidir. 1979-cu ildə "Min bir gecə baleti meydana gəlmişdir. Baletin mövzusu – məşhur "Min bir gecə" nağıllarının süjeti F.Əmirova, bir bəstəkar kimi, geniş yaradıcılıq üfüqləri açmışdır. Baletdə Şərq musiqisinə xas olan zəngin və özünəməxsus ritmlər, rəngarəng rəqs melodiyaları, bəzən qəfil burulğanı, bəzən də bənzərsiz su fəvvarəsinin sayrışan zərrələrini xatırladan orkestr səslənmələri, Azərbaycan və ərəb folklorundan irəli gələn zərif və çılğın ritm-intonasiya diqqəti insanı valeh edir. Bu əsəri ilə bəstəkar ilk dəfə nağıl-balet janrına öz töhfəsini vermiş və Şərq nağıllarının əfsanəvi və əsrarəngiz aləmini bütün dolğunluğu ilə canlandıra bilmişdir.

F.Əmirovun yaradıcılıq irsi çox zəngin və hərtərəflidir. O, musiqili komediyaların, ("Ürək çalanlar", "Gözün aydın"), dram tamaşalarına və kinofilmlərə yazılmış musiqinin, fortepiano əsərlərinin, hamının sevə-sevə oxuduğu mahnı və romansların ("Gülüm", "Ulduz", "İki sahil" romanslarının, "Gülərəm gülsən", "Kor ərəbin mahnısı" (H.Cavidin "Şeyx Sənan" tamaşasından), "Reyhan", "Göygöl", "Səni araram", "Toy mahnısı", "Neyləmişəm" və s.) müəllifidir.

Bəstəkarın folklorşünaslıq, elmi-publisistik fəaliyyəti haqqında da çox söz demək mümkündür. Bəstəkar, özünün dediyi kimi, "fikri həmişə səslərlə deyil, bəzən də sözlərlə ifadə etməyə daxili bir ehtiyac" duyduğundan, Azərbaycan musiqi mədəniyyəti, qarşıda dayanan problemlər, perspektivlər, aktual məsələlər, xalq musiqisi, aşıq yaradıcılığı, muğam sənəti, musiqi və poeziya və s. haqqında öz dərin mənalı düşüncələrini yazıya almışdır. Onun məqalələri toplanılaraq "Musiqi düşüncələri" (1971), "Musiqi səhifələri (1978) və "Musiqi aləmində" (1983) adlı toplularda nəşr edilmişdir. O, eyni zamanda bir çox xalq mahnılarını nota köçürmüş, səs və orkestr, səs və fortepiano üçün işləmişdir. Bu işləmələr xalq mahlarına yeni nəfəs vermiş, onların melodik və ritmik özəlliklərini bir qədər də qabartmış, onlara yeni rəng qataraq, məhz Əmirov təfsirində, xalq arasında bir daha sevilmişdir.

2022-ci il Fikrət Əmirovun 100 illik yubiley ilidir. Məlum olduğu kimi, bu ili Hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev "Şuşa ili" elan etmişdir. Yubileyin "Şuşa ili" ilə üst-üstə düşməsi, fikrimizcə, rəmzi məna daşıyır. Fikrət Əmirov da, Gəncədə doğulsa da, əslən şuşalıdır. Onun atası mahir musiqiçi, tarzən, ud, kanon ifaçısı, musiqişünas, xanəndə, bəstəkar, dirijor, maarifçi Məşədi Cəmil Əmirovdur ("Seyfəl-Mülük" operası, "Namuslu qız" musiqili tamaşası, "Heyratı" zərbi-muğamının ilk not yazısının müəllifi (1912 – "Şahbal" jurnalı, Türkiyə)). "Şur" muğamını da ilk dəfə kiçik Fikrətə tarda çalıb pəsdən oxuyan da məhz Məşədi Cəmil olmuşdur. F.Əmirov da atası kimi, musiqi aləminə tar çalmaqla qədəm qoymuş, onun vasitəsilə milli musiqini, muğamları dərk etmişdir. Böyük Şuşalılar – Ü.Hacıbəyli, Bülbül, C.Qaryağdıoğlu, S.Şuşinski, Q.Pirimov və d. ilə canlı ünsiyyət də onun yaradıcılıq kredosunun formalaşmasında öz aparıcı rolunu oynamışdır.

Mən 2021-ci ilin may ayında Şuşada keçirilən "Xarı bülbül" festivalını yada salmaq istərdim. Həmin möhtəşəm tədbir hələ də yaddaşlardadır, hələ də doya bilmədiyimiz qələbə sevincini bizə yaşatmaqdadır. Heç təsadüfi deyildir ki, konsert proqramına F.Əmirovun məşhur "Azərbaycan kapriççiosu" da daxil edilmişdi. "Azərbaycan kapriççiosu" həmin gün bütün əzəməti, möhtəşəmliyi ilə səsləndi (dirijor – Fuad İbrahimov) və hətta yeni – rəmzi məna alaraq bir daha Azərbaycanı, Qarabağı, azad Şuşamızı vəsf etdi və qələbə himninə çevrildi. Əsl – yüksək bədii incəsənət nümunəsi olaraq öz ali missiyasını – əbədi, həyatsevər başlanğıcı tərənnüm etdi. Fikrət Əmirovun Vətən sevgisini, milli ruhunu özündə canlandıran bu əsər gümrah və nikbin ovqatı, əlvan və dolğun orkestr boyaları, coşqun temperamenti, ehtiraslı və təntənəli romantik ifadə tonları ilə bir daha hamını heyran qoyaraq sevinc göz yaşlarına boğdu. Bizə bu tarixi gündə sonsuz qürur, xoşbəxtlik hissləri yaşatdı, içimizdəki ağrı-acını bir dəfəlik söküb atdı..

**Nəticə / *Conclusion***

Bütün bu deyilənlər bir daha onu göstərir ki, F.Əmirov musiqisi xalqımız durduqca yaşayacaq, daim səslənəcək, içimizi arındıracaq, bizi daha çox özümüzə sevdirəcək, daha çox Azərbaycanlı edəcəkdir.

**Ədəbiyyat / *References***


1. Виноградов В.С. Мир музыки Фикрета. Баку, 1983.
2. Həsənova Ş.H. XX əsr Azərbaycan musiqisi: ənənə və müasirlik. Romantizm ənənələri işığında Fikrət Əmirovun simfonik muğamlarına bir baxış. Bakı, 2011.
3. И.Пазычева. Вариантная генетика симфонического мугама (на примере «Шур» и «Курд-овшары» Фикрета Амирова). "Musiqi dünyası" beynəlxalq elmi-publisistik musiqi jurnalı.


## Композитор Фикрет Амиров – создатель «восточного симфонизма»


**Ирада Кочарли**
Доктор наук по искусствоведении
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: i.kocharli@gmail.com



**Резюме.** В 2022 году исполнится 100 лет со дня рождения выдающегося азербайджанского композитора Фикрета Амирова. Великий человек ушел из жизни десятки лет назад. Однако его произведения – шедевры, которые уже обрели вечность и до сих пор звучат, любят и радуют наш народ, доставляя ему духовное наслаждение, несмотря на прошедшие годы. Фикрет Амиров был композитором, подарившим жемчужины искусства не только Азербайджану, но и мировой музыкальной культуре и заложившим основы нового музыкального жанра – «симфонического мугама». Творчество Ф.Амирова обширно и всесторонне. Он написал ценные произведения в большинстве жанров музыки. Он был автором многочисленных симфонических произведений, балетов, оперы «Севиль», инструментальных и вокально-инструментальных произведений, музыкальных комедий, музыки к спектаклям и кинофильмам, концертов, научных и публицистических статей и очерков. Фикрет Амиров родился в 1922 году в Гяндже – в семье талантливого музыканта,

тариста, удиста, каноиста, музыковеда, певца, композитора, педагога Мешади Джамиля Амирова. Маленький Фикрет вошел в мир музыки под звуки народных мелодий, таких, как «Шур», «Раст», «Сегях» и других мугамов, сыгранных и воспетых его отцом, и играл на таре, и понимал национальную музыку и старинные мугамы с чудесным звучанием этого инструмента, как и его отец. Живое общение с великими шушинцами – У.Гаджибейли, Бюльбюлем, Дж.Гарягдыоглу, С.Шушинским, Г.Пиримовым и другими также сыграло ведущую роль в формировании его творческого кредо.

**Ключевые слова:** Фикрет Амиров, «симфонический мугам», симфония «Низами», опера «Севиль», балет «1001 ночь»